# Şanlı tariximizin parlaq səhifəsi

**Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də onun silahlı qüvvələridir. Vətənimizin qorunmasının, işğal altında olan torpaqlarımızın azad olunmasının başlıca amilini ordumuzun daha da möhkəmləndirilməsində görən Ulu Öndər tez-tez səngərlərdə olur, əsgər və zabitlərlə şəxsən görüşür, ölkənin müdafiə qüdrətini və hərbi potensialını artırmaq üçün ciddi addımlar atırdı. Bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.**

Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması, hərbi-sənaye potensialının gücləndirilməsi orduda aparılan geniş quruculuq işlərinin nəticəsidir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu vəzifə Silahlı Qüvvələrin döyüş qabiliyyətinin ən yüksək səviyyəyə çatdırılmasıdır. Bu mənada güclü ordu formulu ötən 18 ildə Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayələrindən biri kimi diqqəti cəlb edir. Respublikamızın artan maliyyə imkanları Silahlı Qüvvələrimizin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayır.

Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri döyüş hazırlığına görə MDB məkanında ön sıralarda durur. Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir.

**(davamı 6-cı səhifədə)**

# Şanlı tariximizin parlaq səhifəsi

(əvvəli 5-ci səhifədə)

44 gün davam edən Vətən müharibəsi, Ali Baş Komandanın sərkərdəliyi sayəsində qazanılan möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı. Ali Baş Komandanımızın qətiyyəti və mükəmməl sərkərdəlik bacarığı, xalqımızın dəstəyi, ordumuzun yüksək döyüş hazırlığı sayəsində və şəhidlərimizin qanı bahasına qazanılan bu Zəfər xalqımızın tarixində qələbələrin, zəfərlərin ən uca zirvəsində dayanır. Bu Qələbə həm də ona görə qürurvericidir ki, Zəfərimiz naminə canından keçənlərin qisası döyüş meydanında alındı. Vətən müharibəsi bütün dünyaya xalqımızın nə qədər vətənpərvər, nə qədər qəhrəman olduğunu bir daha göstərdi. Milli birliyimizin, həmrəyliyimizin gücünü nümayiş etdirdi.

Milli Ordumuz cəmi 44 gün ərzində işğal altında olan torpaqlarımızı azad etdi. Bu qələbə dövlətçilik tariximizin ən şərəfli zəfəri kimi tarixə çevrildi. Müzəffər Azərbaycan Ordusunun başladığı qətiyyətli əks-hücum əməliyyatları, haqlı savaş ilk növbədə, regionda təhlükə mənbəyi olan Ermənistanın çirkin işğalçılıq və mülki əhaliyə qarşı terror siyasətinə qarşı yönəlmişdi. Azərbaycan beynəlxalq hüquqa və ədalətə söykənərək öz torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir, erməni işğalına son qoymaq üçün işğal edilmiş əraziləri addım-addım azad edir, ərazi bütövlüyünü qoruyurdu. 44 gün davam edən müharibədə Azərbaycan Ordusu bütün dünyaya müasir döyüşlərin aparılmasının nümunəsini göstərdi. Yüksək peşəkarlıq və döyüş əzmi göstərən ordumuz, demək olar ki, Ermənistanın bütün hərbi potensialını darmadağın etdi və xeyli qənimət götürdü. Hesablamalar göstərir ki, düşmənin məhv edilən və qənimət götürülən hərbi texnikasının dəyəri 3,8 milyard ABŞ dolları məbləğindədir.

Azərbaycan Ordusu müharibənin ilk anından son gününə qədər işğalçıya divan tutdu, öz mübarizliyi ilə qəhrəmanlıq simvoluna çevrildi. Əsgərlərimiz, zabitlərimiz bütün dünyaya göstərdilər ki, Vətən uğrunda mübarizə necə olur. Hətta, düşmənlərimiz belə Azərbaycan hərbçisinin qorxmazlığını, cəsurluğunu etiraf etdilər.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz öz vəzifəsini layiqincə yerinə yetirdi. 44 günlük müharibədə düşmənin döyüş meydanında diz çökdürülməsi, məğlubiyyətini dərk edərək aman diləməsi xalqımızın yenilməzliyinin, Silahlı Qüvvələrimizin qüdrətinin, şanlı qalibiyyətimizin təntənəsi oldu. Hər birimizi döyüşə və qələbəyə ruhlandıran dəmir iradə, sarsılmaz qətiyyət xalqımızın bir yumruq kimi birləşməsi, Silahlı Qüvvələrimizin rəşadəti və qəhrəmanlığı ərazi bütövlüyümüzün bərpa olunmasını və düşmənin əzəli torpaqlarımızdan əbədi olaraq qovulmasını təmin etdi.

Azərbaycan xalqının qürur mənbəyi olan bu qələbənin möhtəşəmliyi və doğurduğu sevinc sözlə ifadə edilə bilmədiyi kimi, onun siyasi, hüquqi, tarixi, iqtisadi, geosiyasi əhəmiyyəti də ölçüyə gələ bilməyəcək dərəcədə misilsizdir. Bölgədə yeni reallıqlar yaratmış və sözün həqiqi mənasında, dayanıqlı sülhün və inkişafın qarantı olan Azərbaycanın haqq və ədalət uğrunda apardığı Vətən müharibəsi, onun taktika və strategiyası, istifadə edilən müasir hərbi texnologiyaları bu gün bir sıra inkişaf etmiş ölkələrdə və beynəlxalq təşkilatlarda tanınmış hərbi ekspertlər tərəfindən müasir hərb elminin yeni səhifəsi adlandırılır.

Xalqımız düz 30 il bu şərəfli, şanlı günlərin həsrəti ilə yaşayıb. Torpaq itkisinə dözmək çətin olsa da, üç onillik ərzində zəfər gününün gələcəyini böyük inamla gözləmişik, qəlbimiz həmişə düşmən işğalında qalan yurd yerlərimizlə döyünüb, fikrimiz, düşüncələrimiz Şuşada, Xankəndidə, Kəlbəcərdə, Laçında, Qubadlıda gəzib-dolaşıb.

Rəşadətli Ordumuzun əks-həmlə əməliyyatlarına başladığını sevinc hissi ilə qarşılayan minlərlə vətəndaş həmin günlərdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarələri qarşısına toplanaraq cəbhəyə göndərilmələrini istəyir, döyüş meydanına atılmaq, əsgər və zabitlərimizlə çiyin-çiyinə vuruşaraq düşməni torpaqlarımızdan qovmağa tələsirdilər.

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxışı zamanı demişdir: "Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və on minlərlə hərbçimiz bəxş etmişdir".

Bu gün ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz şərəfli missiyasını uğurla davam etdirir. Artıq Azərbaycan istənilən zəruri anda hər hansı təhdidin vaxtında qarşısını almaq, düşmənə istər diplomatik, istərsə də hərbi arenada layiqli cavab vermək iqtidarına malikdir.

Haqq savaşımız, Vətən müharibəmiz möhtəşəm Zəfərlə başa çatdı. Qarabağımızın, torpaqlarımızın işğalına tam mənada son qoyuldu, Şuşamızda, Laçınımızda, Kəlbəcərimizdə, digər Vətən torpaqlarımızda üçrəngli, ay-ulduzlu bayrağımız əbədi dalğalanacaqdır.

**M.MİRZƏ,**
**"Respublika".**